# Ələsgər Talıboğlunun həyatı və poetik dünyası



*İbrahim Yusifoğlu*
*Şair-publisist, AMEA -nın N.Gəncəvi adına Ədəbiyyat İnistutunun əməkdaşı*

**1970-ci ilin ortalarında Odlar Yurdu Azərbaycanın Naxçıvan diyarının Şərur elinin mətbuat orqanı olan " Işıqlı yol"qazetinin nəzdində Şərur qönçələri" ədəbi birliyi yaradıldı.Az vaxt ərzində rayonun müxtəlif yaşayış məntəqələrindən olan yazarları öz ətrafında birləşdirən "Şərur qönçələri" ədəbiyyat həvəskarlarının ilk qələm təcrübələrini araya-ərşəyə gətirdiyi ünvan oldu.Bir vaxtlar ədəbi birliyin məşğələlərində ürək çırpıntısı ilə öz yazılarını oxuyanlar,ilk yazılarını qazet və jurnal səhifələrində görəndə sevincdən quş kimi qanadlananlar bu gün müxtəlif yerlərə pərvazlanmış və ləyaqətlə ədəbiyyatımıza xidmət edirlər.Doğrudan da "Şərur qönçələri"nin yaradıcısı və üzvi olmuş qələm sahiblərinin adlarını xatırladıqca qəlbimizdən iftixar hissi keçir.Azərbaycan Milli Elimlər Akademiyasının birinci vitse-prezidenti,N.Gəncəbi adına Ədəbiyyat İnstitunun rektoru ,Milli Məclisin deputatı akademik İsa Həbibbəyli,Folklor İnistutunun direktoru akademik Muxtar Kazımoğlu, AMEA-nın müxbir üzvü Kamran Əliyev,filologiya elmləri doktorları Akif İmanlı, ,Sona Vəliyeva, Vəli Nəbioğlu,Əbülfəz Əzimli, ,fəlsəfə doktorları Vaqif Məmmədov,Seyfəddin Eyvazov,Valid Rzayev,Həsənəli Eyvazlı,tanınmış şair və yazıçılardan Əhməd Sədərəkli, Kəmaləddin Qədim, Telman Ağrıdağ,Hüseyn Əsgərov,İnqilab Orxan,Budaq Təhməz, ,Kəmalə Nəsrin,Rafiq Oday,Nəriman Zeynalzadə,Allahverdi Aqil,Nüşabə Məmmədova...Ələsgər Talıboğlu...**

Həqiqi ədəbi məktəb kimi fəaliyyət göstərən "Şərur qönçələri" ədəbi birliyinin üzvü Ələsgər Talıboğlunun keçdiyi həyat yolundan,bitib tükənməyən saf duyğulu yaradıcılığından söz açmaq,şeirlərindən nümunələr gətirmək,onu sevimli oxuculara bir daha tanıtmaq yerinə düşərdi.

## *Araz sahilindən Xəzərədək çağlayan ilham*

Şai- publisist Ələsgər Talıboğlu 1959-cu ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Araz çayı sahilində yerləşən Kərimbəyli kəndində anadan olmuş,ailə vəziyyəti ilə əlaqədar qonşu Axaməd kəndinə köçmüş və bu kənddə yaşamışdır.Hələ məktəb illərindən ədəbiyyata marağı sonsuz olmuş,çoxlu bədii kitablar oxumuş,öz dünyasına qovuşmuş maraqlı şeirlər yazmışdır.Orta təhsil aldıqdan sonra ,arzularının dalınca getmış, Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakultəsinin qiyabi şöbəsini bitirmişdir.

1976-cı ildə tələbə olarkən şagird dəftərinə yazdığı şeirləri ilə birgə "Şərur qönçələri" ədəbi-birliyinin məşqələlərinə gəlmiş,böyük qəlb pıçıltıları ilə şeirlərini oxumuşdur.Oxuduğu şeirlər haqqında söylənilən fikirlər onu bu çətin və əzablı yoldan çəkindirməmiş,daha dolğun şeirlər yazmağa sövq etmişdir.

İlk şeirləri "İşıqlı yol" indiki" Şərurun səsi" qazetində oxuculara çatdırılan Ələsgər Talıboğlunun Vətən torpağına ,yurd yerlərinə, sevgiyə,körpə balalara məhəbbətlə yazdığı şeir və poemaları, publisist yazıları respublika mətbuatında vaxtaşırı dərc olunur."Azərbaycan", "Göyərçin", "Yurd", "Xəzan" kimi jurnallarda, "525-ci qazet","Kaspi" ,"Ədalət", "Vedibasar", "Şərurun səsi" kimi qəzetlərdə silsilə şeirləri dərc olunmuşdur.Bu gün kitab rəflərimizdə Ə.Talıboğlunun biri-birindən maraqlı "Qəm karvanı", "Vətən nəğmələri", "Bir kəhər kişnəyir yuxularımda" ,"O yurd mənim yurdum idi", "Ömrün 60 yarpağı", "Göylər mənim deyil ki", "Salam ata ocağım",uşaqlara hədiyyə etdiyi" Şeir göyərçin dənidi",Təbriz şəhərində nəşr olunan "Yurd sevgisi" kimi kitabları özlərinə layiqli yer tapmışlar.

***Ələsgər Talıboğlunun şeirləri təkcə Azərbaycanlı oxucular üçün deyil,tərcümə olunaraq fransız,rus,özbək,gürcü,ingilis və alman oxucularına da çatdırılmışdır.O,Azərbaycan Yazıçılar Birliyinin üzvü,Məmməd Araz mükafatı laureatıdır.Ömrünün 60 yaşında belə " Dirili Qurbanı", "Sarı aşıq", "Borçalı" və"Əlağa Vahid"kimi ədəbi məclislərdə iştirak edir,ədəbiyyat harrında öz poetik fikirlərini çatdırır.O,bu gün də ilk qələm təcrübələrini oxuduğu "Şərur qönçələri," indiki "Şərur"ədəbi birliyi ilə əlaqə saxlayır,onun məşqələlərində öz yazıları ilə iştirak edir.***

## *Yaradıcılığına verilən qiymət*

Qeyd etdiyimiz kimi Ə.Talıboğlu müxtəlif səpkili və müxtəlif mövzulu 9 ada kitabın müəllifidir.Bu kitablarda toplanan şeirlər, poemalar və publisist yazılar oxucular tərəfindən maraqla qarşılanmış və şairin yaradıcılığı haqqında müxtəlif ədəbi fikirlər söylənilmişdir. Mən bu fikirlərdə Ələsgər Talıboğlu yaradıcılığının hərtərəfli təsfirini nəzərə alaraq,onlardan nümunələr gətirmək istəyirəm.

**Vaqif Yusifli-filologiya elimləri doktoru, tənqidçi:**

-"Ələsgər Talıboğlu,yol kənarında yox,bu rəngbərəng reklamlarla,insan izdihamı ilə bu tıxaclarla dolu şəhərdə özünə yer tapa bilməyən bir kənd adamıdır,ya da kənddən qopub şəhərin qərib küçəsinə sığınan balaca bir qaya parçasıdır.O balaca qaya parçası heç cür qopub ayrıldığı oylağa qayıda bilmir.Özünə yer tapa bilmir və onun yurd yanğılı şeirlərdə elə bu hisslərdən yaranıb".

***Salam,zamanında cavanlıq edib,***
***Sahib çıxmadığım,ay ata yurdum.***
***Mən sənin qoynunda qaldığım anlar,***
***Necə də bəxtiyar,necə də hürrdüm.***

***...Salam,kor-kos basmış,ay həyət-bacam,***
***Gəldim ayağına,gəldim sonunda,***
***Nə qədər,bax,səndən qaçaq düşsəm də,***
***Sevgin çağlamaqla yenə qoynunda.***
***" Salam ata yurdum"***

**Adil Mirseyid, şair-rəssam:** "Ələsgər Talıboğlu vətəndaş qayəli şairdir-onun hər misrasında Vətənin nəbzi vurur.

O Vətəninin oğul anasını sevən kimi haysız-küysüz,təmənnasız,pafossuz sevir.O,vətəndaş şairdir,o,Vətən daşlıdı... Ələsgərin sadə,ancaq ümüdlü,bir az qəmli-qüssəli görünsədə,həyat eşqi ilə dolu şeirləri sanki nəfəs alır,bu şeirlər şairin keşməkeşli həyat yolunun poetik tərcumanıdır.

Bu şeirlərin cövhəri insandır,dünyanın əşrəfi sayılan insan..."

***Bu nə tale,bu nə yazı,***
***Dərd köksümdə şövqlə dindi.***
***Qəmlə yüklü bir yolçuyam,***
***Yollardayam halən indi.***

***Kim yuvamı yıxdı mənim,***
***Ahım göyə çıxdı mənim.***
***Korun-korun yaxdı məni,***
***Oldum qəlbi talan indi.***
***"Qəmlə yüklü bir yolçuyam"***

**Əbülfət Mədətoğlu, şair-publisist:**

"Ələsgər Talıboğlunun şeirləri ilə tanış olduqca bir daha hiss etdim ki,o qaysaq bağlamış yaralarımızın ağrısı,göynərtisi olan bütün sızıltıları sözə çevirib,poeziyaya gətirir.Həmin poetik fikirin də təbii ki,canındakı,qanındakı" hərarət müəllifin həm sözə münasibətindən,hə də duyğularından cilalanır.

***Donub dodağımda qərib nəğmələr,***
***Görünmür göylərdə durna köçü də.***
***Arzu da,istək də ilğıma dönüb,***
***Yoxdur ümidimdən bir ip ucu da.***

***Elə duacıyam,əlim göylərdə,***
***Ünüm yetən qədər bağıra billəm.***
***Boşluqda boğulub ölməyim deyə,***
***Allahı yardıma çağıra billəm.***
***" Donub dodağımda qərib nəğmələr "***

**Asim Yadigar,Naxçıvan Muxtar Respublikasının Yazıçılar Birliyinin sədri .şair:**

-Ələsgər Talıboğlunun şeirləri axıcıdır,obrazlıdır,bədii ifadə vasitələri ilə zəngindir.Əsirlər boyu itirə-itirə gəldiyimiz torpaqlarımızın fəryadını,ağrısını ürək yanğısı ilə bədiiləşdirə bilib..."

***Günəşə bax,göydə bütöv,***
***Ağ bənizli ay da bütöv.***
***Bu fəryadı duy da bütöv,***
***Məmləkətim paramparça.***

***Könül küskün,həsrət yorğun,***
***Ömür də ki,ötür yorğun.***
***Oğlum-qızım gəzir qırğın,***
***Məmləkətim paramparça.***
***"Məmləkətim paramparça"***

Ələsgər Talıboğlunun yaradıcılığının şah damarı Vətən duyğuları ilə axsa da,onun yaradıcılığında poeziyanın klassik,bəşəri mövzusu olan məhəbbət mövzusu da,lirik düşüncələrin fonunda aydın və səmimi bir dillə öz poetik əksini tapmışdır.

***Hansı gün sən məni düşünmüş olsan,***
***Gələrəm o gecə yuxuna sənin.***
***Burnumun ucunda çiçək tək bitən,***
***Gələrəm ətrinə,qoxuna sənin.***

***

***Bir dəli sevdanın düşüb izinə,***
***Sürünə-sürünə,dizin-dizinə.***
***O vüsal anını təpib gözümə,***
***Gələrəm ətrinə,qoxuna sənin.***

**"Mən daha əvvəlki adam deyiləm".**

Bu misra mənə çox şeyi xatırladır.Ömrünün 17 yaşında "Şərur qönçələrin" də öz şeirini çəkinə-çəkinə oxuyan,deyiləcək fikir və tənqiddən ehtiyat edən Ələsgər ildən-ilə ədəbiyyatın çətin və şərəfli yollarında püxtələşmiş,poeziyanın hər bir qanununa hörmət etmişdir.Biz inanırıq ki,ömrünü-gününü bu müqəddəs işə həsr edən Ə.Talıboğlu öz oxucularını ən sanballı kitabları ilə sevindirəcəkdir.Mən Ələsgərin özünün yazdığı bir misraya balaca düzəliş etməklə onunla razılaşıram və deyirəm:-- Sən daha əvvəlki şair deyilsən!

***Mən daha əvvəlki adam deyiləm,***
***Çağlayan bulağam,coşqun bir çayam.***
***Ruhu uca-uca goylər dolaşan,***
***Qəlblərə nur səpən Günəşəm,Ayam!***

***Mən daha əvvəlki adam deyiləm,***
***Ən zərif çiçəkdən ilham alanam.***
***Hər an ürəyimdən süzülüb gələn,***
***Şirin duyğularla qanadlananam!***